# ELM VƏ ƏDƏBİYYAT ŞƏHİDİ

*"Xatirimdədir, mən 1950-ci ildə gəlib Bakıda Təhlükəsizlik Nazirliyində işə başlayanda, o vaxtlar Salman Mümtazın bir neçə materialını axtarırdım, 1938-ci ildə işləyən adamlardan biri gördü ki, bu işlərə maraq göstərirəm, dedi ki, bilirsiniz, bu həyətdə, - binanın həyəti var, həbsxana da orada yerləşirdi, - Hüseyn Cavidin, Salman Mümtazın kitabxanasından qiymətli kitabları ermənilərin və başqa millətə mənsub olanların, çox savadsız adamların gətirib burada vəhşicəsinə yandırdıqlarını gördüm. Mane olmaq istədim, ancaq bacarmadım. Əlbəttə, onlar nə bilirdilər ki, Salman Mümtazda olan nadir kitablar nədir? Əgər bilsəydilər ki, o kitablar Azərbaycan üçün dəyərlidir, onsuz da yandıracaqdılar, çünki Azərbaycanı dağıtmaq istəyirdilər. Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin istintaqını aparanlar onların səviyyəsinə çata bilərdilərmi? Yox! Çünki onların əksəriyyəti savadsız adamlar idi. O vaxtlar, 1937-38-ci illərdə NKVD-də, yəni daxili işlər komissarlığında ali savadlı bir-iki adam tapa bilərdin, bəlkə də, yox idi. Çoxunun heç orta savadı da yox idi..."*

**(Heydər Əliyev. "Xalqa, vətənə, dövlətə sədaqət". Bakı, 1997, s. 19-20)**



Salman Mumtaz

O çox nəhəng şəxsiyyət, istedadlı alim, yorulmaz tədqiqatçıdır. Nə qədər böyük insan, təmənnasız elmpərvər, səxavətli ziyalı, əsl ədəbiyyat təəssübkeşi olmalısan ki, valideynlərindən qalan mirası və özün qazandığın vəsaiti son qəpiyinədək xərcləyib korifeylərin kitablarını, əlyazmalarını alasan, həmin məxəzlər üzərində illərlə gözünün qarasını tökərək işləyəsən, Nəsimi, Füzuli, Həbibi, Xətai, Qazi Bürhanəddin, Qövsi Təbrizi, Nişat Şirvani, Ağa Məsih Şirvani, Vaqif, Zakir, Vazeh və başqalarına iknici həyat verəsən, daha dəqiqi, dəfələrlə əlifbası dəyişdirlib kor qoyulan Azərbaycan xalqına öz tarixini, klassiklərini, ədəbi xəzinəsini tanıdasan...

Onu "Azərbaycan ədəbiyyatının mənşəyi" adlandırırlar, amma həm də ədəbi-bədii qaynaqları zamanın dərinliklərindən süzülüb gələn, folklorunun tarixi bilinməyən, ilk yazılı nümunələrinin yaşı 1300 ildən də çox hesablanan xalqımızın vizit kartıdır, elmi-ədəbi kimliyi, dünyaya təqdimatıdır... Tərcümələri, elmi araşdırmaları, ədəbi fəaliyyətinin miqyası ilə tanışlıqda, yaradıcılıq əlaqələri qurduğu və fotoşəkillərdə əhatə olunduğu dühaları – Lev Tolstoy, Rabindranat Taqor, Sədrəddin Ayni, Maksim Qorki, Fuad Köprülüzadə, Vasili Bartold, Əlibəy Hüseynzadə və digərlərini görəndə fitrətən istedadlı xalqımızın hansı korifeyləri yetişdirdiyini və vaxtsız itirdiyini anlayır, təəssüflənməyə, acımaya bilmirsən...

> *"Mümtaz əsərlərində oxucuya öz ölkəsinə və millətinə sevgisini bildirir, ictimai həyatdakı çatışmazlıqları nümayiş və ifşa edirdi."*
>
> *Yavuz Akpınar,*
> *Türk yazıçısı*

O sadəcə, xatırlananda, adı çəkiləndə təkcə ədəbiyyatçılar, ziyalılar deyil, torpaq, vətən, millət təəssübkeşi hər kəs ayağa qalxıb baş əyməli, ruhuna rəhmət, rahatlıq diləməlidir.

"Alim öldü, aləm öldü" deyib aqillər... Belə şəxsiyyətlər də iki dəfə ölürlər – özlərinin cismani aradan götürülməsi, bir də topladıqları zəngin elmi-ədəbi-mədəni irsin, ziqiymət əlyazmaların yandırılıb məhv edilməsi zəminində... 37-nin repressiya selinə düşüb gedən yüzlərlə araşdırmanın, tədqiqatın taleyinə çökən zülmətə baxmayaraq, Azərbaycan ədəbiyyatı şedevrlərlə dolu tarixinin günümüzə gəlib çatmasına görə həm də ona borcludur. Yəqin ki, diqqətli oxucular söhbətin kimdən getdiyini bildilər... Onu daha geniş təqdim etmək, hər bir səhifəsinin üzərində saatlarla danışmaq mümkündür: şair, ədəbiyyatşünas, biblioqraf, mətnşünas, orta əsr əlyazmalarının kolleksiyaçısı, 1934-cü ildən Yazıçılar Birliyinin üzvü, SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı Dil və Ədəbiyyat İnstitutu ədəbiyyat sektorunda I dərəcəli tədqiqat işçisi, Dövlət Elmi-Tədqiqat İnstitutu Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri və sair. Əsgərov Salman Məmmədəmin oğlunun (20 may 1884 – 6 sentyabr 1941) təqdimatını xeyli uzatmaq olar, amma İttifaqın elmi ictimaiyyəti, bütün Rusiya, Orta Asiya, Qafqaz, Krım, Osmanlı türkləri tərəfindən tək bir adla sevildi - Salman Mümtaz kimi...

"Müşfiq elə bir oddur ki, özünü yandıracaq" söyləyirdi Cavid Əfəndi, Mirzə Salmanın da sonunu gətirən tədqiqatları, arxivi, kitabxanası - "Kitabxaneyyi-Mümtaziyyə" oldu. Həmin xəzinədə nələr yox idi, ilahi!.. Məşhur rus şərqşünasları Bartold və Oldenburq kitabxananın elmi quruluşuna, peşəkar tərtibatına, oradakı əlyazmaların



Soldan sağa: Əbdürrəhim bəy Haqverdiyev, Rzaqulu Nəcəfov, Salman Mümtaz, Zeynal Məmmədov və Əliqulu Qəmküsar



Salman Mümtaz Moskvada SSRİ yazıçılarının birinci qurultayında. Onun sağ tərəfində əyləşib: Maksim Qorki, Aleksey Tolstoy və Səməd Vurğun; arxasında dayananlar: Mehdi Hüseyn və Cəfər Cabbarlı.

*"Sonsuz əziyyətlə topladığı əlyazmalardan misilsiz bir kitabxana yaratmışdı. Zənginliyinə görə təkcə Əbdülqəni Nuxəvi Xalisəqarızadənin (1817-1879) və Məhəmmədəli Tərbiyətin (1877-1940) şəxsi kitabxanalarıyla müqayisə ediləcək bu xəzinənin üstünlüyü ondaydı ki, Salman Mümtazın yığdığı əlyazmaların əksəriyyəti türkcəydi..."*

*Ədalət Tahirzadə*

zənginliyinə heyran qaldılar. Görkəmli tatar ədəbiyyatşünası Əziz Qubaydullin onun klassik şair və yazıçıların əsərlərini gərgin zəhmətlə nəşr etdiyini bildirir və barələrində yazılan bioqrafik məlumatları "ən qiymətli bioqrafiya məlumatları" adlandırırdı. Doğrudan da alimlərimiz - Firudun bəy Köçərli və Salman Mümtaz ədəbiyyatımız üçün bir elmi-tədqiqat institutunun işini görmüşdülər. Lakin uğurlar, yalnız dostlarımızı sevindirə bilərdi, düşmənlər isə marığa yatıb hər sətri, cümləsi ilə Azərbaycan xalqını daha da müdrikləşdirən, ədəbiyyatının, mədəniyyətinin kökünü zamanın dərin qatlarına aparan, dünya sivilizasiyasına bağışladığı möhtəşəm əsərləri bir-bir tapıb üzə çıxaran bu elm mücahidini susdurmaq üçün



Urxun Qalabəyli

fürsət gözləyirdilər... Nəhayət belə amansız şərait 1937-ci ilin oktyabrında yetişir – dahi soydaşımız "əksinqilabi fəaliyyətinə görə" həbsə alınır və 10 il müddətinə azadlıqdan məhrum edilir. Oryol şəhərindəki xüsusi türmədə 1941-ci ilin sentyabr ayında güllələnir. Həbs vaxtı min-bir əziyyət və maliyyə hesabına topladığı yüzlərlə əlyazma yandırılır...

Salman Mümtazın nəvəsi, şərqşünas Urxun Qalabəyli ilə söhbətə də nədənsə bu faktla başladıq. Səmimi, gülərüz, məlumatlı, vətənpərvər ziyalıdır, zəngin irsin tanıdılmasında anası ilə birgə xeyli zəhmətlər çəkiblər. Şəhla xanım atasının haqqının bərpası üçün çox işlər görüb, hətta o vaxtı SSRİ rəhbəri Nikita Xruşşova müraciət də ünvanlayıb. Belə mücadilə nəticəsində Salman Mümtazı unutdurmaq mümkün olmayıb. Urxun müəllim mövzunun qəhrəmanı haqqında, yalnız doğma babası olduğuna görə yox, istedadı, məqamı, vətən üçün kimliyi, fəaliyyətinin əhəmiyyəti, nakam taleyi, yarımçıq qalan işlərə təəssüfü üzündən ürək ağrısı ilə danışır, tez-tez kövrəlir də... Mən sövq-təbii "bəlkə də Rusiyanın qərbinə, Avropa hissəsinə deyil, Uzaq Şərqə göndərilsəydi, ömrü belə qırılmazdı" deyə təsadüflərdən imdad umuram. O təbii ki, alman faşistlərinin hücumu ilə əlaqədar həmin ərazilərdə "təmizləmə tədbirləri"nə işarə vurduğumu göydə tutaraq "araşdırılıb, Oryoldakı kolona SSRİ miqyasında ən savadlı, məhsuldar, eyni zamanda da rejimin çəkinib ehtiyatlandığı məhkumları yığmışdılar" deyir:

- Həbsxana sənədlərində olay təbii ölüm kimi sənədləşdirilib. Uzun illər bir çox mənbələrdə Salman Mümtazın xəstəliyə tutulduğu və bu səbəbdən vəfat etdiyi yazılmışdı. Ailə üzvlərinə verilən arayışda da Salman Əsgərovun Oryol şəhərində beyin qanaxmasından öldüyü yazılıb. Əslində isə bu, tamamilə uydurmadır. Salman Mümtaz 1938-ci il fevralın 24-də Sol-İletsk türməsinə, oradan da repressiyaya uğrayan digər tanınmış elm xadimləri ilə birgə Oryola sürgün edilib. Böyük Vətən Müharibəsi başlananda Beriya Mərkəzi Komitəyə müraciət ünvanlayaraq, şəhər almanların əlinə keçməzdən öncə, bütün siyasi məhbusların güllələnməsinə razılıq alır. Dustaqların hamısına özləri üçün məzar qazdırır və öldürüb həmin yerdə basdırırlar. Rusdilli mənbələrdə güllələnmə tarixi 1941-ci ilin 6 sentyabrı göstərilir.

Məlumdur ki, repressiya qurbanları ancaq Stalinin ölümü və Xruşşovun hakimiyyətə gəlişindən sonra bəraət ala bildilər. 16 noyabr 1956-cı il tarixində SSRİ Ali Məhkəməsi tərəfindən Salman Mümtaz haqqında yazılan ittihamnamə ləğv edildi və ona bəraət verildi.

***– Urxun müəllim, şübhəsiz ki, ailə başçısını alıb aparan repressiya dalğası digər Mümtazzadələrdən də yan keçmədi... Ailə hansı çətinliklərlə üzləşdi?***



Salman Mümtaz və müəllimi Həbib Səmədzadə

lakin müsbət cavab ala bilməyib. Salman Mümtaz tif xəstəliyinə yoluxanda evə telefon çəkdirib ki, mütəmadi xəbər ala bilsin. (Müsahibim bu məqamda çətin günlərdə onlardan dəstəyini əsirgəməyən dükançı Muxtar dayıdan tutmuş, sonralar qəbullarına getdikləri dövlət və mədəniyyət xadimləri – Nazim Hacıyev, Şıxəli Qurbanov, Yusif Məmmədəliyev, Teymur Elçin, Süleyman Rüstəm, Mehdi Hüseyn, Mircəlal, Süleyman Rəhimov, Yaşar Qarayev, Cənnət Nağıyevanı minnətdarlıqla yad edir)

- Görkəmli tədqiqatçının elmi fəaliyyətinin üfüqləri təsəvvür edilməyəcək qədər genişdir. O, ədəbiyyatımızı iki hissəyə - “xas ədəbiyyatı” (klassik) və “xalq ədəbiyyatı”na (folklor) bölməklə əhatəli tədqiqatlar aparmışdı...

- Mən indi sizə qısa şəkildə bəzi mətləbləri sadalayacam ki, hamısı “ilk” kəlməsi ilə başlayır: Salman Mümtaz ilk növbədə folklorumuzun toplanması və nəşri yolunda yorulmaq bilmədən çalışıb. 1920-ci ildən söz sənəti üzrə araşdırmalara başlayan alim bu sahədə Vəli Xuluflu, Hənəfi Zeynallı və Hümmət Əlizadə kimi şəxslərlə birgə çox faydalı işlər görüb.1927-1928-ci illərdə Azərbaycan aşıq poeziyası nümunələrini iki cilddə nəşr etdirib.

Dövri mətbuatda “Unudulmuş yarpaqlar” rubrikası altında ilk araşdırmalarını ortaya qoyub. 1921-ci ildə Həbibinin həyat və yaradıcılığı haqqında məlumat verib, onu istedadlı şair kimi tanıtdırıb. Məqaləsinə Həbibinin məşhur qəzəllərindən birini və Füzulinin barəsində yazdığı təxmisi daxil edib. İlk dəfə doğum tarixini açıqlayıb: “Füqəra füyuzatı” jurnalının 1921-ci il, üçüncü sayında Həbibinin 1470-1475-ci illərdə anadan olduğunu göstərib.

“Azərbaycan şairlərindən Nəsimi” məqaləsi ilk ciddi uğuru sayılır. Böyük şairin həyat və yaradıcılığının ədəbiyyatşünaslığımızda ilk belə geniş tədqiqi babama məxsusdur.

1930-cu ildə Əlyazmalar Fondunda mühafizə olunan XVII əsrə

- Əvvəla, onun cismani yoxluğundan ailəsi illərlə məlumatsız qalıb – bu faktın özü stalinizm dövründə insan urvatsızlığının bariz nümunəsidir. Təsəvvür edin ki, 1941-ci ildə güllələnmiş şəxsin taleyi barədə - ölümü ilə bağlı xəbəri ailəsi 16 ildən sonra 4 mart 1957-ci il tarixində dəqiqləşdirə bilir...

Babam Şəkidən olan həmyerlisi Zeynəb xanımla ailə həyatı qurmuşdu. Bu evlilikdən dayım İsgəndər və anam Şəhla dünyaya gəliblər. Oğlu Moskvada Rəssamlıq Akademiyasında, qızı isə Bakı Dövlət Universitetinin kimya fakültəsində təhsil alırdı. Mümtaz istintaqa cəlb olunan gün İsgəndər akademiyanın V kursundan, anam isə universitetin II kursundan qovuldu...

Nənəm 1980-ə qədər yaşadı. Gülərüz, mehriban, həyatsevər, qonaqpərvər qadın idi. Qurani-Kərimi və Sabirin “Hophopnamə”sini əzbər bilirdi. Qapımızı döyən kimsəni – poçtalyonu, montyoru, MİS işçisini çaysız-çörəksiz buraxmazdı. Bir dəfə qaz ustası gəlmişdi, işini görüb getmək istəyəndə nənəm əl çəkmədi, süfrəyə dəvət elədi. Uşaq idim, dedim, çox zəhmət çəkirsən, hamının qarşısına yemək-içmək qoyursan, bəlkə biri ac deyil, yemək istəmir... Yaş süzülən gözləri uzaqlara zilləndi, cavabı indiyə qədər qulağımdan getmir, söylədi ki, mən ərimin ehsanını verirəm...

Radioda tez-tez Türkiyənin efir dalğalarını tutub verilişləri, musiqiləri dinləyirdim. Gəlib fikirli-fikirli baxıb başını bulayır, “elə baban da belə şeylərin güdazına getdi” deyirdi.

Ailəmizdə Nəriman Nərimanov həmişə xoş xatirələrlə anılır, babamla yaxın olub, hətta kommunist partiyasına üzvlüyə dəvət edib, Leninlə görüşdürmək istəyib,



Salman Mumtaz və akademik Bertels



Zeynab nənə

aid əlyazmaya istinadla ilk dəfə Şah İsmayıl Xətainin Divanını (Şair-hökmdarın "Dəhnamə" poemasının AMEA Əlyazmalar İnstitutunda saxlanılan natamam siyahısının nəşri isə hələ 1923-cü ilə aiddir) oxucuların ixtiyarına verib.

19 mart 1937-ci il tarixdə çapı planlaşdırılan Məhəmməd Füzuli əsərlərinin birinci cildi ilə əlaqədar yaradılan komissiya alimin çoxillik araşdırmaları haqqında sənəd tərtib edib. Həmin sənəddən aydınlaşır ki, Salman Mümtazın hazırladığı Füzuli əsərlərinin Y.Bertels tərəfindən redaktə edilən latın qrafikalı birinci cildi–qəzəllər Həbib Səmədzadədədir. Ərəb qrafikalı II cildin birinci hissəsi–"Leyli və Məcnun" redaktə üçün Leninqrada göndərilib, ikinci hissəsi Bakıdadır. "Bəngü-Badə"–III cild isə qaralama formasındadır və Salman Mümtazın özündədir. Məhəmməd Füzulinin tərcümeyi-halına aid 260 səhifəlik monoqrafiyası Y.Bertels tərəfindən redaktə edilərək Əlyazmalar İnstitutunun arxivinə verilib.

Bu siyahını xeyli uzatmaq, XIX əsrin sonu–XX əsrin əvvəlində yaşamış ədiblərə qədər gətirib çatdırmaq, hətta dünya ədəbiyyatı kontekstində nəzərdən keçirmək mümkündür. Məsələn, İsmayıl bəy Qutqaşınlının fransızca yazdığı "Rəşid bəy və Səadət xanım" hekayəsinin axtarışına 20 ilini sərf elədi. Mixail Lermontovun 16 şeirdən ibarət dəftərçəsini taparaq müəllifin yubileyi üzrə təşkilat komitəsinə bağışladığı barədə faktlar var və sair.

O, ədəbi irsimizi yalnız toplamaqla kifayətlənməyib, həm də geniş təbliğ edib. İstedadlı alim Ədalət Tahirzadə kitabında yazır ki, babam 23 ilin içində 20 adda kitab buraxdırıb. "Seyid Əhməd Hatif İsfahaninin tərcibəndi və tərcümeyi-halı" (1913), "Ağaməsih Şirvani" (1921), "Molla Pənah Vaqif" (1925, 1937), "Nişat Şirvani", "Məhəmmədhüseyn xan Müştaq", "Qövsi", "Nitqi Şirvani" (1925), "Qasım bəy Zakir" (1925, 1936), "Mirzə Şəfi Vazeh", "Seyid İmadəddin Nəsimi" (1926), "Baba bəy Şakir", "Aşıq Abdulla" (1927), "El şairləri" (I nəşr I cild 1927, II cild 1928; II nəşr I cild 1935, II cild 1936), "Mehdi bəy Şəqaqi", "Ağabağır Şirvani", "Mirzə Nəsrulla bəy Didə" (1928), "Vaqif" (İ.Cahangirovla birgə,1933), "Sarı Aşıq və bayatıları" (1935), "Molla Vəli Vidadi" (1936) bu  bu qəbildəndir. Qəzet və jurnal məqalələrində də çoxlu şeirlər, müxtəlif əsərlərdən örnəklər üzə çıxarıb.

Ümumiyyətlə, 1933-cü ildə yeni yaradılan SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında kiçik elmi işçi işləyən Salmaz Mümtaz 483 şairimizin siyahısını hazırlayıb, həyat və yaradıcılıqlarının öyrənilməsinin vacibliyini vurğulamış,104 mütəfəkkir barədə isə geniş araşdırma planlaşdırmışdı.

Filoloqların təbirincə desək, "ədəbiyyat tariximizdə Salman Mümtaz kimdir?" sualının qısa cavabı budur: 1500-dən artıq Azərbaycan şairinin irsini min-bir müsibətlə əldə edib yaşadan böyük TOPLAYICI, 100-dən çox yazarımızı ilk dəfə üzə çıxararaq bolşevizmin senzurasından qoruyan, nəşrə hazırlayan ARAŞDIRICI, misilsiz söz xəzinəmizi 20 adda kitabında, yüzədək məqaləsində el malına çevirən YAYICI, ədəbiyyatşünaslığımızın özülünü qoyanlardan biri...

Salman Mümtazın böyüklüyü ondadır ki, araşdırmaları yalnız Azərbaycan ədəbiyyatı ilə məhdudlaşmayıb, Şərq klassikləri Firdovsi, Sədi, Rudəki, Nəvai, Məxdumqulu və başqaları haqqında da sanballı yazıları var.

- Şübhəsiz ki, Salman Mümtaz əzəmətinin anlaşılması üçün dünya ədəbiyyatı zirvəsində qərar tutmuş bir neçə korifey sənətkarla münasibətləri kifayətdir. O, sanki Şərq və Qərb ədəbiyyatı və söz adamları arasında bir dilmanc, əlaqələndirici, körpü idi...

- 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji qurultayda, 1934-cü ildə Moskvada SSRİ yazıçılarının birinci qurultayında iştirakı, Firdovsinin 1000 illiyində Azərbaycan nümayəndə heyətinin tərkibində əvəzsiz xidmətləri babamın nəinki xalqımıza, bəşəriyyətə nə qədər gərəkli olduğunun göstəricisidir. Böyük hind ədibi Rabindranat Taqor iki dəfə ölkəmizə gəlib, hər ikisində ona tərcüməçilik edib, çünki Azərbaycanda urdu dilini bilən yeganə şəxs idi. Maksim Qorki ilə yaxın dostluq münasibətləri vardı, Moskvada ev vermişdi ona, nənəm Zeynəb ömrünün son günlərinə qədər həmin ünvana – Arbat 57-yə qeydiyyatdaydı... Yasnaya Polyanada dahi Lev Tolstoyla görüşmüş, söhbətləşmişdi... Professor Mehmed Fuad Köprülüzadə 1950-ci ildə SSRİ-yə Türkiyə xarici işlər naziri kimi gələndə babamla yenidən görüşmək üçün müraciəti cavabsız qaldı, çünki Salman Mümtaz repressiya qurbanı olmuşdu və artıq həyatda deyildi. Buna görə rəsmi Ankaranın sovet hökumətinə nota verməsi faktı var...

Sağlığında akademiklər N.Y.Marr, A.Y.Krımski, A.Y.Samoyloviç, V.V.Bartold, Y.E.Bertels, Məhəmmədəli Tərbiyət, Səid Nəfisi və digərləri ilə məktublaşıb, dünya şöhrətli filoloqlar onun araşdırmalarına heyranlıqlarını gizlətməyiblər.

- Söz sənətimizin tarixinin öyrənilməsində zəhmətə qatlaşmaqda olduğu kimi, əlyazmaların alınması, kitabların nəşri məqsədilə səxavət göstərməkdə də Salman Mümtaz əvəzsiz və əsl nümunədir...

- Babamın əlyazmalar almağa və digər xeyriyyə işlərinə sərf etdiyi az-çox sərvəti iki istiqamətdən toplanmışdı: əvvəla, babası Ağaələsgər çox varlıymış. O və həyat yoldaşı vəfat etdikdə kimsəsiz qalmış oğlu Məmmədəmin, yəni babamın atası var-dövlətlərinə yiyələnmiş əmisinə sığınır, zərgər yanında işləyir. Sonra Məşhəd ziyarətinə gedir. Qayıdanda yolunu Aşqabaddan salır, burada torpaqların çox ucuz qiymətə satıldığını eşidib Şəkidən gətirdiyi qızılla xeyli



1926-cı ildə türkiyəli alim və dövlət xadimi Mehmed Fuad Köprülüzadə, Əli bəy Hüseynzadə və Salman Mümtaz Bakıda Birinci Türkoloji Qurultayda

ərazi alır, yurd salır, az vaxtda karvansara və dəzgah sahibinə çevrilir. Azərbaycanda yaşayan ailəsini yeni mülkünə aparmağa hazırlaşan ərəfədə - 1887-ci ildə 32 yaşında ağciyər xəstəliyindən dünyasını dəyişir. Qaynı Kərbəlayi Əsgər öz bacısına, yəni Məmmədəminin həyat yoldaşı, Mümtazın anası Məşhədi Zəhra xanıma (1865-1938) deyir ki, biz bu qazancla iki tifil körpəni böyüdüb boya-başa çatdıra bilməyəcəyik, gedək Aşqabada, ərinin var-dövlətinə yiyə dur... Beləcə, 1900-cü ildə qardaşları və oğulları ilə birgə Bakıdan köçüb gedən Məşhədi Zəhra Aşqabadda məskunlaşır. Mirzə Fətəli Axundovla qohumluq əlaqələrinə malik, düşüncəli və bacarıqlı qadın övladları böyüyənədək iri bir sandığı (sonralar kitablara xərclənəcək) qızılla doldurur...

İkincisi, Salman və qardaşı Əsgər də valideynlərindən miras qalan pulun bir hissəsini ticarətə yatırtmışdılar, dükanları vardı. Babamın dükanı Fioletovda (indi Əbdülkərim Əlizadə küçəsi) yerləşirdi. Anam danışırdı ki, uşaq vaxtı tez-tez atasının iş yerinə gedərmiş... Bir dəfə dükanda başqa adamlar, Salman Mümtazı da bərk məşğul görür, nəsə hesablayır, qiymət müəyyənləşdirir, ortaq məxrəcə gəlməyə çalışırlarmış... Sonradan məlum olur ki, Nəsiminin Divanını satmağa gətiriblər, babam kağız pul vermək istəyir, sahibi razılaşmır, qızıl istəyir. Elə oradaca adam göndərib, əskinasları qızıl pula dəyişərək ödəniş eləyir, əlyazmanı alır və həddsiz sevinir.

Bax beləcə, min-bir əziyyətlə, məsrəflə toplanan məxəzlərin bir hissəsi yandırıldı. Evində axtarış zamanı və əmlakı müsadirə edilərkən orta əsrlərin müxtəlif elm sahələrinə aid və şərq dillərində yazılan 238 əlyazma (bəzi mənbələrdə 270 və daha çox) götürülmüşdü. Bu boyda xəzinəyə görə qızına - anam Şəhla xanıma vur-tut 6010 rubl 60 qəpik pul verilib. Nəşr olunmayan əsərlərin salamat qalan digər qismini ələ keçirən elm oğruları isə onları öz imzaları ilə çap etdirdilər...

Amma təkcə əlyazmalara, kitab çapına pul xərcləmirdi, eyni zamanda xeyriyyə tədbirlərinə, 1919-cu ildən üzvü olduğu "Yaşıl qələm" cəmiyyətinin fəaliyyətinə, "Ölülər" və digər pyeslərin səhnəyə qoyulmasına, demokratik ruhlu qəzet-jurnalların, xüsusən də "Molla Nəsrəddin"in işıq üzü görməsinə maliyyə vəsaiti ayırır, müxtəlif imzalarla şeir, felyeton, tənqidi məqalələr yazırdı.

***- Siz demişkən, qiymətli məxəzlərin məhv olunanı-olundu, xeyli hissəsini oğurlayıb istinadsız-filansız öz adına çıxan "alim"lər barədə də söhbətlər gəzdi. Hətta mərhum Hüseyn Arif bir şeirində buna işarə də vurub: "Alim tanıyıram qoca Qafqazın, çeşmə tək durulub dibindən çıxır. Alim var sağ əli Salman Mümtazın, sol əli Hümmətin cibindən çıxır..." Beləələri barədə sizdə konkret faktlar varmı?***

- Toxunduğunuz rüsvayçılıqlar elmi ictimaiyyətə çoxdan məlumdur. Bir var, müəyyən məsələlərdə, hansısa müddəalar üzrə müraciət edəsən, hətta neçə bəndi, abzası çırpışdırasan... Bir də var bütöv mövzunu özəlləşdirəsən, səhifə-səhifə köçürəsən, başqasının – nakam, faciəli taleli tədqiqatçının zəhməti hesabına elmi ad, titul, təltiflər alasan... 1957-ci ildən – babam bəraət aldıqdan sonra akademiyada bu problemə qayıdıldı, təhqiqatlar aparıldı, hamının yaxşı tanıdığı o akademikin, professorun etirafları da var ki, bəli, iş tamamilə Salman Mümtaza məxsusdur, amma mən belə etməsəydim, itib-batacaqdı... (?!) Əlbəttə, söhbət Məhəmməd Füzulinin irsi üzrə araşdırmalara sahib çıxmaqdan gedir. Nizami Gəncəvinin "Xəmsə"si işlənib çapa tam hazır vəziyyətdə idi, onu da ələ keçirdilər. "Dədə Qorqud"un Drezden və Vatikan nüsxələrindən əlavə bir nüsxəsi də bizim evdə idi, yoxa çıxdı, kim kimə satdı, bu gün də heç bir məlumat yoxdur. Mahmud Kaşğarinin Divanını çapa hazırlayırdı, məşhur "Koroğlu" dastanı üzərində işləyirdi və sair. Son yarım əsrdə ölkəmizdə və dünyada İmadəddin Nəsiminin iki yubileyinin - 600 və 650 illiyinin möhtəşəm şəkildə keçirilməsi təqdirəlayiqdir. Amma Azərbaycanda Nəsimi yaradıcılığının ilk dəfə 1926-cı ildə Salman Mümtaz tərəfindən tədqiqi və nəşri barədə bir kəlmə danışılmır. Dünya şöhrətli şairin əlyazmalarına çəkilmiş miniatürləri Ermitaja bağışlamışdı və bu gün də həmin eksponatlar muzeyin Şərq kolleksiyasında




Salman Mümtazın həbsdə çəkilmiş fotosu

saxlanılır. Məhz babamın gərgin əməyi sayəsində Nəsiminin Divanı ərəb qrafikalı Azərbaycan dilində işıq üzü gördü. Salman Mümtaz hələ iyirminci illərdə Nəsiminin Şahxəndan adlı qardaşı olduğunu yazmış, Şamaxıda yerləşən məşhur qəbiristanlığın onun adı ilə bağlılığını göstərmiş, bunun əsasında da dahi hürufinin Şamaxıda dünyaya gəldiyi qeyd etmişdi...

***- İndicə Kaşğarinin adını çəkdiniz, "Divani lüğəti-türk"dən, "Koroğlu" dastanından danışdınız... -babanıza qarşı irəli sürülən ittihamlar arasında belə məqamların yer alması nə dərəcədə ədalətlidir?***

- Bilirsiz, hər hansı olay üzrə dəqiq müəyyənləşmiş səbəb-bəhanə faktorları nöqteyi-nəzərindən fikir yürüdülərsə, səhih nəticəyə gəlinə bilər. Bəli, ittihamnamədə həmin məqamlar yer alıb, amma düşmənləri qorxudan Salman Mümtazın varlığı, yorulub-usanmadan çalışması və hər tapıntısı ilə xalqımızın qədimliyi, eləcə də dünya mədəniyyəti xəzinəsinə verdiyi töhfələrə daha bir fakt, sübut əlavə eləməsi idi. Deyilənə görə, hansısa dəyərli kitabı istəyib sözü yerə düşdüyünə görə Mircəfər Bağırov ona möhkəm qəzəblənibmiş, amma vəfatı, yaxud güllələnməsi xəbərini eşidəndən sonra "Azərbaycanın açarını itirdik" deyə bərk heyfsilənib...

Babam1937-ci il oktyabrın 8-i, axşam saat 11-də Bakıdakı evində – Buynakski, № 25 ünvanında (indiki Şeyx Şamil küçəsi) siyasi dustaq qismində həbs olunub. Bir həftə sonra Azərbaycan SSR Cinayət Məcəlləsinin 69, 70, 72, 73 maddələri ilə təqsirli bilinərək ittiham irəli sürülüb. Müstəntiqlər Sinman, Qalstyan, Avanesyan və Borşşev tərəfindən üç ay dəhşətli işgəncələrə məruz qalıb. Dövlət Təhlükəsizliyi İdarəsinin leytenantı Qalstyanın hazırladığı sorğu-sual aktında deyilir: "Sizin həbs olunma səbəblərinizdə qeyd edilir ki, Sovet İttifaqı Kommunist Partiyasına və Sovet hökumətinə qarşı əks-inqilabçı millətçi mövqedə dayanmısınız və əks-inqilabçı millətçi təşkilatın üzvüsünüz. Siz – Əsgərov Salman Mümtaz Məmmədəmin oğlu əksinqilabçı millətçi təşkilatın üzvü olduğunuzu və əks-inqilabi millətçi mövqedə dayandığınızı etiraf edirsinizmi?" Mümtaz cavablandırır: "Xeyr. Mən əks-inqilabçı millətçi təşkilatın üzvü deyiləm və əks-inqilabi millətçi mövqedə dayanmıram!"

Belə əsassız suçlamalarla yanaşı, zorən "Azərbaycanın milliyyətçilik dastanı" donu geyindirilən "Koroğlu" üzərində işlədiyi üçün də istintaq olunurdu. Mümtazın bu əsəri seçməklə xalqı SSRİ-yə qarşı milli müstəqillik mübarizəsinə ruhlandırması göstərilmişdi. Həmçinin, Mahmud Kaşğarinin Divanının nəşrə hazırlanmasında iştirakına görə də ittiham edilirdi...

***- Repressiya olunanların ailələri ilə əlaqələriniz vardımı?***

- Salman Mümtaz hələ həbs olunana qədər əksər tanınmış ziyalılarla yaxın idi. Cəfər Cabbarlı evə gəlib-gedər, Mikayıl Müşfiq utancaqlığından qapıda gözləyər, babam çıxanda nəsə soruşub-öyrənərmiş... Ölkəni bürümüş qorxu, xof dumanı bir çox münasibətlərə məcburən nöqtə qoysa da, nənəm babamın qətlə yetirilmiş və həbsə alınmış dostlarının ailələri ilə əlaqə saxlayırdı. Ən çox da Hüseyn Cavidin və Seyid Hüseynin övladları ilə... Danışırdı ki, hər iki şəxslə yaxın dostluq və yaradıcılıq ünsiyyətləri olub, görüşləri, söhbətləri elə maraqlıymış ki, hətta elmi diskussiyaya çevrilərmiş...

> *"Salman Mümtaz fars və Azərbaycan dillərində əzbərdən və xoş bir ahənglə şeirlər oxuyardı. Onun çox yaxşı yaddaşı var idi."*
>
> *Rza Təhmasib*

Cavid əfəndinin həyat yoldaşı Müşkinaz xanım və qızı Turanla, Seyid Hüseynin övladları Oqtay, Toğrul, Qumral Sadıqzadələrlə görüşüb dərdləşərdi... Xüsusən Toğrul Zeynəb xanımın xətrini dünyalar qədər istəyər, tez-tez ona baş çəkərdi.

Ümumiyyətlə, Bakıda belə bir qayda vardı: repressiyaya uğrayanların ailə üzvlərinin sürgündə, yaxud həbsdəki doğmaları barədə informasiya axtarışına çıxmaları... Məsələn, eşidirdilər ki, İçərişəhərdə, Balaxanıda, Masazırda kimsə cəzasını çəkib qayıdıb, gedirdilər özlərininkini soruşmağa... Anamla birgə mərhum Xalq artistimiz Hacağa Abbasovgilə, digər ünvanlara getməyimizi yaxşı xatırlayıram. Bir dəfə köhnə Sovetskidə bir evin qapısını döydük, ev sahibi bizi çox soyuq qarşıladı, "filankəs sizsizmi" soruşanda, "bəli, mənəm nə lazımdır" deyə köntöy cavab verdi. Anam deyəndə ki, Salman Mümtazın qızıdır, atasından xəbər tutmağa gəlib, həmin kobud adamdan əsər-əlamət qalmadı, az qala əyilib Şəhla xanımın ayaqlarını öpəcəkdi... Sevincindən qışqırırdı: "Sən doğrudanmı o kişinin qızısan, ay qonşular, görün bizə kim gəlib, Salman Mümtazın qızı..." Onlar həqiqətən bir təcridxanada qalıblarmış, amma yatab olunandan sonra görüşmədiklərini təəssüflə söylədi.

Təxminən altmışıncı illərdə anam təsadüfən küçədə jurnalist Qulam Məmmədli ilə rastlaşır. Görkəmli mətbuat tədqiqatçısı söyləyir ki, qızım, sən başını uca tut, sıxılma, yalnız iki nəfər - atan və Seyid Hüseyn kimsəni satmayıb, əleyhinə ifadə verməyiblər. Bəzilərini onların üzünə qoydular, lakin başqalarına qarşı istifadə edə bilmədilər. Bilirsiz, Məhəmməd Əmin Rəsulzadənin əmisi qızı ilə evləndiyindən Seyid Hüseyn də çox zülümlər çəkdi, günlərlə ac-susuz saxlanıldı, döyülməkdən tanınmaz hala düşmüşdü, 1938-ci ildə güllələndi.

***- Urxun müəllim, Azərbaycan Demokratik Respublikasının 102 yaşı tamam oldu. Mümtaz da elmi fəaliyyəti ilə bərabər, Cümhuriyyət şairi, Cümhuriyyət qurucularını vəsf edən istedadlı söz ustası idi...***

- Mümtazzadələr ailəsi Aşqabaddan Bakıya 1918-ci ildə - Cümhuriyyətin qələbəsi ərəfəsində qayıtdı. Azərbaycanın müstəqilliyinin milli xəzinə olduğunu anlayan Salman Mümtaz Qafqaz İslam ordusunun komandanı Nuru paşa və Osmanlı imperiyasını hərbi naziri, siyasi xadim Ənvər paşanın xidmətlərini yüksək qiymətləndirirdi. 1918-ci ildə Nuru paşa ilə görüşərək ona həsr etdiyi "Öyün, millət" qəzəlini söyləyib:

*O gün millət ki əltafı olub şövkətli sultanın,*
*Hilalın haləsi qılsın əhatə türk övtanın.*
*Təfaxür eylə, ey millət, muradın hasil olmuşdur,*
*Daha əflakə yüksəlməz əninü ahü əfğanın...*

Ənvər paşanın şərəfinə isə "Ənvəriyyə" müxəmməsini yazıb:

*Müsəlman qeyrətin çəkdin, gözətdin türkün namusun,*
*Dağıtdın xavəri-islamdən küffar kabusun.*


Ukraynadan gəlmiş alimlərlə görüş

> “Salman Əsgərov və ya ləqəbi ilə Mümtaz “Molla Nəsrəddin” jurnalında özünün 12 pürmənə şeiri ilə millətin nöqsanlarını göstərir, nicatına yol göstərməkdə qələmi ilə xidmət edir.”
>
> “İqbal” qəzeti

*Məsaciddən dilərdi rus asa öz nəhs naqusun,*
*Gəbərdib, torpağə sərdin həyasız niyyətin rusun.*
*Günəşdən parlaq amalın olub Şərq əhlinə əzhər,*
*Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!*

O zaman bir sıra ziyalılarımız Qafqaz İslam Ordusunun rəhbərliyi tərəfindən mükafatlandırılıb, o cümlədən Cəfər Cabbarlıya qiymətli saat bağışlanıb, babam ordenlə təltif olunub.

***- Çox təəssüf ki, Salman Mümtazın arxeoloji xidmətləri barədə heç danışılmır, Şeyx Nizaminin məqbərəsinin axtarışı və tədqiqi işlərini xatırlatmaq istərdim...***

- Babam bununla bağlı aylarla Gəncədə qalıb və dağıntılar, toz-torpaq içində işləməkdən möhkəm xəstələnmişdi, nəhayət məqsədinə nail oldu, sözügedən istiqamətdə əziyyətlərinin unudulması doğrudan da ağrılıdır. Bilirsiz ki, xüsusən Nizami irsinə digər xalqların iddiası nöqteyi-nəzərindən həmin tapıntı xeyli mühüm sayılırdı. Köhnə türbəni tədqiq etmiş və iki fotosunu yayımlamış akademik V.Bartold yazır ki, fars ədəbiyyatında Nizaminin Gəncədə dəfni haqqında yalnız ümumi məlumatlar verilir; türbənin xarici görünüşünün necəliyi, kim tərəfindən inşası və sairlə qarşılaşmamışam. Yalnız aşağıdakı əsərlərdə Nizami türbəsinin xatırlandığını bilirəm.

”Tarixi-aləm-arayi-Abbasi” əsərinin müəllifi olan İskəndər Münşi deyir ki, 1606-cı ilin fevralında Gəncəyə yaxınlaşan Şah Abbas Nizaminin türbəsi yaxınlığında düşərgə salır. Özünün Avropaya birinci səfərindən sonra Şah Nəsrəddin yol üstündə Gəncə yaxınlığında bişmiş kərpicdən tikilmiş, lakin bərbad vəziyyətdə olan Nizami türbəsini görür.

Abbasqulu ağa Bakıxanovun “Gülüstani-İrəm”i də bizi bilgiləndirir ki: Onun gözəl bəzədilmiş türbəsi indi Gəncə şəhəri yaxınlığında yerləşir. Bu türbənin yaxınlığında 1826-cı ildə məşhur Yelizavetpol döyüşü baş vermişdir.

1922-ci ildə şairin məzarı açılıb, qalıqları yeni tabuta yığılaraq dəfn üçün Gəncə şəhərinə gətirilib. Lakin rəsmi göstərişə əsasən, geri qaytarılıb və əvvəlki yerində torpağa tapşırılıb. Bundan sonra Nizaminin türbəsinin bərpası və ya yenisinin inşası üçün abidənin tədqiqi məqsədilə əraziyə ekspedisiya qrupu göndərilib.

***- Urxun müəllim, Salman Mümtaz bir çox şair-yazıçı və mütəfəkkirlərin həyat və yaradıcılığını öyrənib, nəşr etdirib, gələcək nəsillərə çatdırıb. Bəs onun özünün fəaliyyəti barədə aparılan tədqiqatlar qənaətbəxş sayıla bilərmi?***

- Əlbəttə, “heç nə edilməyib” iddiası düzgün olmazdı. Ötən əsrin 60-cı illərində Nəcəf Nəcəfov adlı alim sözügedən mövzuda namizədlik dissertasiyası yazıb. Filologiya üzrə fəlsəfə doktoru Rasim Tağıyev 1986-cı ildə professor Əkbər Ağayevin redaktorluğu, akademik Məmməd Arif Dadaşzadənin rəyi ilə babamın məqalələrindən ibarət “Salman Mümtaz. Azərbaycan ədəbiyyatının mənşəyi” adlı maraqlı bir kitab nəşr etdirib. Səksəninci illərin sonunda Məmməd İsmayılın “Gənclik” jurnalında S.Mümtaz və V.Xuluflu haqqında dəyərli məqalələr işıq üzü görüb. Mərhum akademik Ziya Bünyadov mətbu məqalələrində və radio-televiziya çıxışlarında daim bu məsələyə toxunub. Çox sağ olsunlar, dəyərli alimlərimiz Ədalət Tahirzadə və Nəsiman Yaqublu ki, babamın elmi-ədəbi fəaliyyəti ilə bağlı təkcə mütəxəssis kimi deyil, həm də can yanğısı, haqqın bərpası, milli təəssübkeşlik kontekstində fundamental araşdırmalar ortaya qoydular. Amma ona qarşı sanki bir qərəz və qismətsizlik (hətta cismən olmadığı dövrlərdə də) həmişə üstəyaqdadır. Elə bilirəm ki, talan olunmuş irsi üzərindəki qanuni haqqının bərpası ilə Salman Mümtazın ruhu daha çox sevinəcək və rahatlanacaqdır... ❖

**Qurban Məmmədov**